**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ŞƏFƏQ FƏXRƏDDİN QIZI ƏLİYEVA**

# AZƏRBAYCAN FOLKLORUNDA ŞAH ABBAS OBRAZI

**5719.01- Folklorşünaslıq**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilən dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

**Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Klassik folklor" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Muxtar Kazım oğlu İmanov**
AMEA-nın müxbir üzvü

**Rəsmi opponentlər:** **Xatirə Bədrəddin qızı Bəşirli**
filologiya üzrə elmlər doktoru

**İslam Hüseyn oğlu Sadıqov**
filologiya üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə:** Bakı Dövlət Universitetinin "Azərbaycan şifahi xalq ədəbiyyatı" kafedrası

**Müdafiə** "_26__ "____10_______ 2016-cı il saat "___" -da Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən FD.01.201 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı şəhəri, İçərişəhər, 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ___ " __________ 2016-cı ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent:** **Afaq Xürrəm qızı Ramazanova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Şah Abbas obrazının şifahi xalq ədəbiyyatı nümunələrində mühüm yer tutması bu obrazı sistemli surətdə araşdırmaq zərurətini ortaya çıxarır. Ehtiyac yaranır ki, Şah Abbas obrazı başda dastan, nağıl, əfsanə, rəvayət janrları olmaqla, folklorun müxtəlif janrlarında tədqiq edilsin, bu obrazın səciyyəvi cəhətləri üzə çıxarılsın. Bu isə öz növbəsində, Şah Abbasın xalq arasında məşhur olma səbəblərini aydınlaşdırmağa, obrazdakı tarixiliyin hansı səviyyədə olduğunu müəyyənləşdirməyə imkan yaradır.

Azərbaycan folklorundakı Şah Abbas obrazı tarixdəki Şah Abbas ilə qırılmaz surətdə bağlıdır. Tarixi mənbələrdə Şah Abbasın hökmranlıq etdiyi dövrə və onun şəxsiyyətinə aid maraqlı və zəngin məlumatlar vardır. Bu məlumatları nəzərə almadan, tarixi mənbələrlə folklor nümunələri arasında müqayisələr aparıb nəticələr çıxarmadan Azərbaycan folklorunda Şah Abbas obrazını lazımi səviyyədə tədqiq etmək çətindir.

Mifoloji görüşlərin tədqiqata cəlb edilməsi folklordakı Şah Abbas obrazını düzgün istiqamətdə öyrənməyə yaxından kömək edir. Araşdırmanı mifoloji görüşlər, inanclar və mərasimlər əsasında aparmaqla Şah Abbasla bağlı bir sıra mübahisəli məqamlara aydınlıq gətirmək mümkün olur.

Şah Abbas obrazının əfsanə, rəvayət, nağıl, dastan və lətifələr əsasında araşdırılması tarixi şəxsiyyətlə bağlı obrazın janrdaxili mahiyyətini açmağa, eyni obrazın müxtəlif janrlarda özünü göstərən oxşar və fərqli cəhətlərini müəyyənləşdirməyə imkan yaradır.

**Mövzunun araşdırılma tarixi.** Azərbaycan folklorunda Şah Abbas obrazına həsr olunmuş ayrıca dissertasiya işi olmasa da, mövzu ətrafında sanballı araşdırmalar mövcuddur.

AMEA-nın müxbir üzvü M. Kazımoğlu hökmdar obrazı ilə bağlı tədqiqatlar aparmış və "Folklorda uydurma hökm-

dar motivi”[1], “Arxaik parodiya: hökmdar və təlxək”[2] adlı məqalələrində hökmdar obrazının arxaik kökləri ilə bağlı mülahizələr irəli sürmüşdür.

Azərbaycan folklorunda Şah Abbas obrazı haqqında elmi fikirlərin bir mənbəyi də folklorşünaslıq sahəsində hazırlanmış dərsliklərdir.

P.Əfəndiyevin “Azərbaycan şifahi xalq ədəbiyyatı”[3] , V.Vəliyevin “Azərbaycan folkloru”[4] dərsliklərində müəlliflərin Şah Abbas obrazı haqqında fikirlərinə də yer verilmiş, M.H.Təhmasib, A.Nəbiyev, Y.Səfərov və b.-nın araşdırmalarında birbaşa və ya dolayı şəkildə Şah Abbas obrazına toxunulmuşdur.

Ş.Albalıyevin “Azərbaycan məişət nağıllarında Şah obrazı” dissertasiyasında Şah Abbas obrazı yalnız nağıllar əsasında araşdırılmışdır. Lakin zəngin və çoxjanrlı Azərbaycan folkloru təkcə nağıllarla məhdudlaşmır. Şah Abbas obrazına dastanlarda, xüsusən də “Abbas və Gülgəz” dastanında, ayrı-ayrı rəvayət, əfsanə və lətifələrdə geniş yer verilmişdir.

Hökmdarla bağlı mifoloji görüşlərdən bəhs edilərkən M. Seyidov, A. Acalov, A. Hacılı, A. Şükürov, C. Bəydili, S. Rzasoy, R. Əliyev və b. tədqiqatçıların araşdırmaları az əhəmiyyət daşımır.

Azərbaycan tarixinə dair kitablar, tarixçilərin bu istiqamətdəki əsərləri də müqayisələr aparmağa və folklordakı Şah Abbas obrazı ilə tarixdəki Şah Abbasın oxşar və fərqli cəhətlərini müəyyənləşdirməyə kömək edir. Mövzunun araşdırılma tarixini qısaca olaraq Azərbaycan folklorşünaslığı əsasında izləsək də, dissertasiyada O.M. Freydenberq, V.Y. Propp, E.M. Meletinski, Y.M. Lotman kimi rus, C.C. Frezer kimi Avropa və rus, Ə.İnan, B.Ögəl kimi türk ədəbiyyatşünaslarının mifologiya və folklorla bağlı qənaətləri nəzərə

---

[1] “Ortaq türk keçmişindən ortaq türk gələcəyinə” III Uluslararası folklor konfransının materialları. B., 2005, s.266–269

[2] “Azərbaycan” jurnalı, №2. B., 2006, s.178–183

[3] Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı:Maarif, 1992, 479 s.

[4] Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985, 413 s.

alınmış və araşdırma boyu bütün bu qaynaqlardan istifadə edilmişdir.

**Dissertasiyanın obyekti və predmeti.** Folklorun müxtəlif janrlarında yer almış Şah Abbas obrazı dissertasiyanın əsas araşdırılma obyektidir. Müqayisələr aparmaq üçün yeri gəldikcə başqa xalqlara məxsus hökmdar obrazlarına da müraciət edilmişdir.

Dissertasiyanın predmetini hökmdar haqqında mifik təsəvvürləri özündə qoruyub saxlayan mifoloji mətnlər, mərasimlər, xalq oyunları, həmçinin əfsanə, rəvayət, nağıl, dastan və lətifə janrları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan folklorundakı Şah Abbas obrazı ilə bağlı əsas cəhətləri üzə çıxarmaq dissertasiyada başlıca məqsəd kimi qarşıya qoyulmuşdur. Bu məqsədlə bir sıra vəzifələrin yerinə yetirilməsi məqsədəuyğun hesab edilmişdir:

–şah obrazının mifoloji köklərini araşdırmaq;

–arxaik dünyagörüşə görə hökmdarın həm də kahin vəzifəsini icra etdiyini nəzərə çatdırmaq və hökmdar-kahin genetik bağlılığını aşkar etmək;

–hökmdar və "ölümsüzlük" problemini uydurma və əsl hökmdar qarşılaşması əsasında araşdırmaya cəlb etmək;

– Şah Abbas obrazının tarixi köklərini nəzərdən keçirmək;

– folklor materialları ilə tarixi faktların müqayisəli təhlilini vermək;

– tarixlə müqayisədə folklordakı şah obrazının özünəməxsusluğunu üzə çıxarmaq;

–Şah Abbas obrazında tarixi şəxsiyyətlə folklor qəhrəmanının bağlılığına diqqət yetirmək və bu bağlılığın folklor nümunələrinə təsirini öyrənmək;

–əfsanə, rəvayət, nağıl və dastanlarda "ciddi" yöndə təqdim edilən Şah Abbas obrazını sistemli surətdə tədqiqata cəlb etmək;

–Şah Abbas obrazının komik yöndə təsvir edildiyi folklor nümunələrinin səciyyəvi xüsusiyyətlərini aşkara çıxarmaq və s.

**Dissertasiyanın nəzəri-metodoloji əsasları.** Tarixi-müqayisəli metod dissertasiyanın nəzəri-metodoloji əsasını

təşkil edir. Mövzunun lazımi dərəcədə araşdırılması üçün dissertasiyada A.Nəbiyev, P.Əfəndiyev, M. Seyidov, A. Acalov, A.Hacılı, A.Şükürov, F.Bayat, R.Əliyev, S.Rzasoy, C.Bəydili və b. alimlərin, dünya ədəbiyyatşünaslarının nəzəri fikirlərinə istinad edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** "Azərbaycan folklorunda Şah Abbas obrazı" bu mövzuda yazılmış ilk sistemli tədqiqat əsəridir. Folklorun müxtəlif janrlarında Şah Abbas obrazının xüsusi və geniş şəkildə araşdırılmasına ilk dəfə bu əsərdə təşəbbüs edilir. Dissertasiyada arxaik təsəvvürlər sistemində mühüm yer tutan hökmdar kultu diqqət mərkəzinə çıxarılır, hökmdar-kahin genetik bağlılığı və bu bağlılıqdan doğan inanclar tədqiqatda xüsusi olaraq nəzərə alınır.

Dissertasiyada ilk dəfə olaraq mifoloji obraz və tarixi şəxsiyyət, eyni zamanda folklor obrazı və tarixi obraz geniş müstəvidə müqayisə və təhlil olunur. Şah Abbas obrazı fonunda bütövlükdə hökmdar obrazının mifoloji köklərinin araşdırılması, hökmdar və "ölümsüzlük" probleminin uydurma və əsl hökmdar qarşılaşması əsasında araşdırmaya cəlb edilməsi dissertasiyada öz əksini tapan yeniliklərdəndir.

"Ciddi" yöndə təqdim edilən Şah Abbas obrazının əfsanə, rəvayət, nağıl və dastan janrları əsasında izlənilməsi, obrazın janrdaxili özünəməxsusluğunun üzə çıxarılması da tədqiqatın elmi yenilikləri sırasına daxil edilə bilər.

Dissertasiyada ilk dəfə olaraq Şah Abbas obrazı komik folklor nümunələri əsasında araşdırmaya cəlb olunur, komizmin obrazda, həmçinin obrazın təqdim edildiyi süjet tipində yaratdığı dəyişiklik konkret misallar əsasında aşkar edilir.

**Dissertasiyanın nəzəri-praktik əhəmiyyəti.** Dissertasiyada irəli sürülmüş fikir və mülahizələr mifoloji obraz və tarixi şəxsiyyət, eyni obrazın ayrı-ayrı folklor janrlarında oxşar və fərqli şəkillərdə təqdim edilməsi, komizm və tarixi şəxsiyyət və s. kimi problemlərin araşdırılmasında faydalı ola bilər. Bu tədqiqat işindən folklorşünaslıq ixtisası üzrə nəzəri hazırlıq keçmək niyyətində olan filoloqlar dərs vəsaiti kimi istifadə edə bilərlər.

**Dissertasiyanın aprobasiyası.** İş AMEA Folklor İnstitutunun "Klassik folklor" şöbəsində yerinə yetirilmişdir.

Tədqiqatın əsas müddəaları ayrı-ayrı dərgilərdə nəşr olunan məqalələrdə, elmi konfrans materiallarında əks olunmuşdur.

**Tədqiqatın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN MƏZMUNU

İşin ümumi səciyyəsini əks etdirən **"Giriş"**də mövzunun aktuallığı əsaslandırılmış, elmi yeniliyi, məqsəd və vəzifələri müəyyənləşdirilmiş, nəzəri və praktik əhəmiyyətindən, tədqiqat zamanı istifadə olunan metod və mənbələrdən bəhs olunmuş, işin aprobasiyası və quruluşu haqqında məlumat verilmişdir.

Dissertasiyanın **I fəsli "Hökmdar obrazının mifoloji və tarixi kökləri"** adlanır. İki yarımfəsildən ibarət olan bu fəsildə hökmdarla bağlı arxaik düşüncə sistemi əsaslı surətdə nəzərə alınmış, Şah Abbasın tarixi şəxsiyyət kimi xalq arasında məşhur olma səbəbləri araşdırılmış və bu obrazdakı tarixiliyin hansı səviyyədə olduğu müəyyənləşdirilmişdir.

*"Hökmdar obrazının mifoloji kökləri"* adlı *I yarımfəsildə* hökmdarla bağlı mifoloji düşüncə sistemi əsaslı şəkildə nəzərə alınmış və Şah Abbas obrazı bu sistem əsasında araşdırmaya cəlb olunmuşdur.

Folklorda Şah Abbas obrazını düzgün istiqamətdə araşdırmaq üçün ilk növbədə hökmdar obrazının hansı magik mahiyyət daşıdığına diqqət yetirmək, onun mifoloji köklərini araşdırmaq lazım gəlir. Çünki hökmdara münasibət mifoloji görüşlərdən qaynaqlanır. Şah Abbas obrazının mifoloji köklərini tədqiq edərkən belə nəticəyə gəlmək olur ki, onun əfsanəviləşdirilməsi, qeyri-adi bir insan kimi təsvir edilməsi hökmdarın heç də adi adam olmadığını, bu ali mənsəbə Allah tərəfindən göndərildiyini bildirmək üçündür. Mifoloji görüşlərdə hökmdara xüsusi bir qüvvə, özü də Allah tərəfindən göndərilən qüvvə, xüsusi səlahiyyət sahibi kimi qiymət verilməyinin nəticəsidir ki, Şah Abbas müxtəlif folklor nümunələrində fövqəltəbii şəxsiyyət kimi təsvir edilir.

Qədim mifoloji görüşlərə görə, hökmdarı, eyni zamanda bütün cəmiyyəti qorumaq üçün (hökmdar idarə etdiyi cəmiyyətin əsas simvolu, başqa sözlə desək, atributu sayılırdı)

Allaha qurbanlar vermək lazım idi. Bu ənənə Böyük Hun imperiyasında geniş yayılmışdı. Məsələn, Mete həmçinin ölkənin baş kahini idi, bu isə onun nüfuzunu daha da yüksəldirdi. Hunların baş ibadətgahı Metenin qərargahında yerləşirdi və ildə bir dəfə ölkənin bütün yüksək mənsəbli sərkərdələri və əyanları hər yerdən buraya gəlirdilər. Burada "əcdadlara, göyə, yerə və ruhlara" qurban kəsilirdi. Mete "Göy və Yer tərəfindən doğulmuş, Günəş və Ay tərəfindən başçı qoyulmuş" kimi təntənəli titul daşıyırdı. Göydə tək Tanrını, yerdə isə onun yeganə nümayəndəsinin (Şanyuyun) hakimiyyətini təbliğ edən dini sistem yaradılırdı[1]. Şanyuy fəth edilmiş xalqların sahibi, öz xalqının isə atası sayılırdı. O, hər səhər doğan Günəşə, axşam isə Aya sitayiş edirdi[2].

Qurbanvermə mərasimi müxtəlif xalqlarda bu və ya başqa formada həyata keçirilirdi. Məsələni ətraflı araşdıran C.C.Frezer ayrı-ayrı xalqların həyatından götürülmüş zəngin materiallar əsasında hökmdarı qorumağın müxtəlif yollarını araşdırmışdır. Bu yollardan ən başlıcası, Şah Abbasla bağlı əhvalatda olduğu kimi, hökmdarın bir neçə günlüyə uydurma hökmdarla əvəz olunması idi. Şah Abbas –Yusif Sərrac əhvalatında uydurma hökmdar öldürülür və ölmüş hökmdarın gücü-qüvvəti əsl hökmdara – Şah Abbasa ötürülür. Tarixdə baş vermiş bu əhvalat yalançı hökmdarın öldürülməsi vasitəsilə həqiqi hökmdara güc-qüvvət verilməsi motivi ilə oxşardır.

Şah Abbas-Yusif Sərrac əhvalatında olduğu kimi, başqa ölkələrdə keçirilən mərasimlərdə də uydurma hökmdarı şahın öz əshabələrindən, öz nəslindən deyil, yoxsul insanlar arasından seçirdilər ki, şah üçün potensial rəqib olmasın.

Deyilənlərə əsasən belə qənaətə gəlmək olar ki, başqasının ölümü vasitəsilə hökmdarın gücünü-qüdrətini qoruyub saxlamaq inamı uydurma hökmdar variantında da qalmaqda davam edir[3].

---

[1] Гумилев Л.Н. История народа хунну. т.1. Москва: Институт ДИ-ДИК, 1998, с. 105-106

[2] Мартынцев А.И. Археология. Москва: Высшая школа, 2002, с.268 – 269

[3] Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı: Elm, 2006, s.92

**I fəslin** *II yarımfəsli "Şah Abbas obrazının tarixi kökləri"* adlanır. Xalqın tarixi keçmişini qismən də olsa, özündə əks etdirən folklor nümunələri müəyyən dövrə məxsus ictimai-tarixi şərait haqqında az-çox təsəvvür yaradır. Bu isə folklorla tarixi əlaqəli şəkildə öyrənməyi və folklorda tarixilik prinsiplərinin araşdırılmasını zərurətə çevirir.

Bu sahədə müəyyən tədqiqatlar aparan rus alimi B.N.Putilov belə hesab edirdi ki, xalq epik poeziyasının janrları gerçəkliyin bədii ifadəsinin müəyyən qanunauyğunluqla yaranmış tipləridir, onların əsas fərqləndirici xüsusiyyəti isə tarixiliyin xarakteridir[1]. Bir çox folklor nümunələrindəki obrazlara, eyni zamanda əhvalatlara tarixi əsərlərdə də rast gəlinməsi təsadüfi deyil. Tarixi şəxsiyyət olan Şah Abbas obrazı da Azərbaycan folklorunda belə yaddaqalan obrazlardan biridir. Lakin tarixi faktları nəzərə almadan Azərbaycan nağıl, əfsanə, rəvayət, dastan və lətifələrində yaradılmış Şah Abbas obrazını tədqiq etmək, şübhəsiz ki, birtərəfli mülahizələrin ortaya çıxmasına səbəb ola bilər. Hadisələrə obyektiv mövqedən yanaşılması və Şah Abbasla bağlı mənəvi irsin düzgün tədqiq edilməsi üçün isə tarixi faktlara istinad zəruridir.

Ehtimal etmək olar ki, folklor nümunələrində başqa padşahlarla müqayisədə daha çox Şah Abbasın adının hallandırılması onun uzunmüddətli hakimiyyəti və Səfəvilər dövlətinin qüdrətini bərpa etməsi ilə bağlıdır. Bir neçə fakta nəzər salaq: XVI əsrin sonunda böhran keçirən Səfəvilər dövləti zəif və iradəsiz şah Məhəmməd Xudabəndənin dövründə tənəzzülə uğrayırdı. Bir tərəfdən Xorasanı tutmağa çalışan özbəklərin hücumu, bir tərəfdən Osmanlı qoşunlarının getdikcə artan təzyiqi, o biri tərəfdən isə portuqalların Səfəvilərin Qırmızı dəniz, Fars körfəzi və Hind okeanına birbaşa çıxışını bağlamaları, o cümlədən yerli feodalların özbaşınalığı iqtisadi cəhətdən zəif olan dövlətə nə müharibə etməyə, nə də islahatlar aparmağa imkan vermirdi[2].

---

[1] Путилов Б.Н Типология фольклорного историзма // Типология народного эпоса. Москва: Наука, 1975, с. 168

[2] Azərbaycan tarixi. Bakı: Çıraq, 2009, 395-400

Belə bir ictimai-tarixi şəraitdə Səfəvi əmirlərinin bir qrupu yaxşı başa düşürdü ki, dövlətin qüdrətini bərpa etmək üçün qüdrətli hökmdar lazımdır. Buna görə də 1587-ci ildə qızılbaş tayfalarından olan ən güclüləri – şamlu və ustaclu soylarının əmirləri Xudabəndənin oğlu, 16 yaşlı Abbas Mirzəni Qəzvində şah elan etdilər. Müəyyən islahatlar keçirərək dövləti möhkəmləndirən və əmirlər arasında davam edən çəkişmələri aradan qaldıraraq[1] 42 il hakimiyyətdə olan Şah Abbas [1587–1629] haqqında xalq ədəbiyyatı nümunələrinin yaranması təbii idi.

Tədqiqatçıların bir qismi şifahi xalq ədəbiyyatı nümunələrində I Şah Abbasın deyil, II Şah Abbasın obrazının yaradıldığını iddia edirlər. Bu, yanlış fikirdir. Əslində, şahların hər ikisi hakimiyyətdə olduqları dövrdə məmləkətdə abadlıq işlərinin aparılmasına, sənətkarlığın inkişaf etdirilməsinə ciddi fikir vermişlər. Lakin II Şah Abbasın rəiyyətə münasibətdə mülayim və səbirli olması, məmləkəti abadlaşdırması və s. faktlar əsas vermir ki, nağıl, dastan və s. folklor nümunələrində I Şah Abbasın deyil, II Şah Abbasın obrazının yaradıldığı iddia edilsin. Bizim folklor nümunələrimizdəki Şah Abbas obrazı II Şah Abbasın tarixçisi Məhəmməd Tahirin “Abbasnamə” əsərindəki şah obrazı ilə deyil, İsgəndər bəy Münşinin “Tarix-i aləmarayi-Abbasi” əsərindəki Şah Abbasla daha çox uyğunluq təşkil edir.

V.Vəliyevin sözləri ilə desək, nağıllardakı Şah Abbas surətinə daha çox xalqın arzu və istəklərinin təcəssümü kimi[2] baxmaq lazımdır. Çünki folklorda tarix heç də olduğu kimi əks olunmur, folklorun tarixi qavramasının öz modeli var. Bu fikri Azərbaycan folklorunda yaradılan Şah Abbas obrazına da şamil etmək mümkündür. Birmənalı şəkildə demək olmaz ki, Azərbaycan folklorunda Şah Abbasa münasibət tamamilə müsbətdir. Səfəvilər dövlətinin hərtərəfli möhkəmlənməsində mühüm rolu olan Şah Abbas bəzi folklor nümunələrində qəddar, bəzilərində isə ədalətli, müdrik şah kimi təsvir olunur.

---

[1] Azərbaycan tarixi. Bakı: Çıraq, 2009, s.400

[2] Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985, s.264

Azərbaycan folklorunda tarixiliklə bağlı maraqlı araşdırmalar aparan Y.Səfərov Şah Abbasla bağlı mülahizələri belə qruplaşdırır:

1. Nağıllarda xalqın Şah Abbasa münasibəti daha çox müsbətdir.

2. Bu, həm də xalqın "ədalətli şah" arzusundan irəli gəlmişdir.

3. İran-türk müharibələrində Şah Abbasın siyasi məqsədlər üçün "quruculuq" işləri aparmaqla xalqı öz tərəfinə çəkə bilməsi, əhalinin kasıb təbəqəsinə müəyyən diqqət yetirməsi Şah Abbas obrazının müsbət planda təsvirinə öz təsirini göstərmişdir.

Bunlarla yanaşı, tədqiqatçı Şah Abbasın xalq kütlələri arasında şiəliyi təbliğ etdirməsini və Ordubadlı Hatəm bəyin sarayda baş vəzir yerini tutmasını da Şah Abbasın Azərbaycan nağıllarında müsbət planda təsvir edilməsinin səbəbləri kimi izah edir[1].

Beləliklə, Şah Abbas haqqında tarixi faktları araşdırarkən bu faktların folklordakı Şah Abbas obrazının yaranmasına təsirsiz qalmadığı aydınlaşmış olur.

Dissertasiyanın **II fəsli "Ciddi" yöndə Şah Abbas obrazı"** adlanır. Bu fəsildə Şah Abbasla bağlı bəzi mübahisəli məqamlara aydınlıq gətirmək üçün komik deyil, "ciddi" yöndə Şah Abbas obrazının yaradıldığı əfsanə, rəvayət, nağıl, dastan kimi folklor janrlarının tədqiqi məqsədəuyğun hesab edilir.

Bu fəslin *"Rəvayətlərdə Şah Abbas obrazı"* adlanan *I yarımfəslində* bu qənaətə gəlinir ki, bir çox hallarda Şah Abbas obrazı ilə bağlı bəzi rəvayətlər yanlış olaraq əfsanə kimi təqdim edilmişdir. "Şah Abbasın doğulması" "Pəri qala" və s. rəvayətlər bu qəbildəndir. "Pəri qala" rəvayətində gürcü hökmdarı Tamaranın qalada yaşamasından, onun üstünə qoşun göndərən bütün hökmdarları məğlub etməsindən bəhs edilir. Bir gün Şah Abbas qalayçı şagirdi paltarında gəlib onu görür və bir ildən sonra qalaya hücum edir, ağır döyüşlərdən sonra iranlılar Tamaranın qoşununa qalib gəlir. Tamara qalanın

[1] Səfərov Y. Azərbaycan folklorunda tarixilik. Bakı: Elm, 2005, s.160

başına çıxır və özünü oradan yerə atır[1]. Göründüyü kimi, mətnə hansı parametrdən yanaşsaq, onun rəvayət olduğu görünür və real etnoqrafik köklərə malik bu rəvayətdə tarixiliyin izləri qorunmaqdadır. Tarix kitablarında da Şah Abbasın Gürcüstana hücumu ilə bağlı bəzi detalların verilməsi bu rəvayətin müəyyən tarixi əsası olduğunu sübut edir. XVII əsrdə Şah Abbasın gürcülər üzərinə hücum etməsi ilə bağlı tarixi faktlar kifayət qədərdir. Sözügedən rəvayətdə dolayı yolla həmin tarixi əhvalatlara işarə edilmişdir. Lakin gürcü kraliçası Tamara başqa dövrdə, XII – XIII əsrlərdə Gürcüstanın hökmdarı olmuş, türk sultanı Rüknəddin Süleymanın evlənmək təklifi rədd edilmiş, sonralar II Saltukun nəvəsi Müzəffərəddin dinini dəyişib xristianlığı qəbul edərək kraliça ilə evlənmişdir. Bizim fikrimizcə, bu rəvayətdə Şah Abbasın gürcü kraliçası Tamara ilə evlənmək motivi XII – XIII əsrlərdə türk sultanı ilə Tamara arasında olan məhəbbət macərasından qaynaqlanır, yəni burada da az-çox tarixiliyin izləri saxlanılmaqdadır.

S.P.Pirsultanlının qeyd etdiyi kimi, "əfsanə və rəvayətlərdə tarixiliyin müəyyən elementləri özünü göstərir... Burada folklor əsərinin yarandığı zamanın əhəmiyyətli dərəcədə rolu vardır"[2].

Rəvayətlərdə tarixilik folklorun başqa janrlarına nisbətən üstünlük təşkil etdiyinə görə, mühüm ictimai-siyasi hadisələrlə əlaqədar olaraq yaranmış bu folklor nümunələrinin tədqiqinə daha çox tarixi-filoloji aspektdən yanaşılır.

Şah Abbas obrazının "ciddi" yöndə təsvir olunduğu rəvayətlərin əsas xüsusiyyətlərindən biri xalqın Şah Abbas haqqında qənaətlərini bədii şəkildə özündə ifadə etməsidir. "Eymənmə, könlüm eymənmə", "Şah Abbasın qatırı", "Mənim atım ana-baladı", "Şah Abbasın ölümü", "Nar əhvalatı" rəvayətləri bu qəbildəndir.

"Bayquşların söhbəti" rəvayətində isə bayquşların xarabalıq haqqındakı söhbətlərini eşidən Şah Abbas tutduğu

---

[1] СМОМПК, VII выпуск, Тифлис, 1889, s.96–97

[2] Pirsultanlı S.P. Azərbaycan türklərinin xalq əfsanələri. Bakı: Azərnəşr, 2009, s.17-18

əməllərdən peşman olur, saraya qayıdaraq bütün xəzinəsini kasıblara paylayır[1].N.Gəncəvinin "Sirlər xəzinəsi" poemasında bu rəvayətdən ibrətamiz hekayət kimi istifadə edilmişdir.

"Ciddi" yöndə Şah Abbas obrazının təsvir olunduğu rəvayətləri araşdırarkən bu qənaətə gəlinir ki, tarixi həqiqətlərlə, şəxsiyyətlərlə bağlı yaranan rəvayətlər də fantaziyadan xali deyildir[2].

Dissertasiyanın **II fəslinin** *II yarımfəsli "Nağıl və dastanlarda Şah Abbas obrazı"* adlanır. Ümumiyyətlə, Şah Abbas obrazının "ciddi" yöndə təsvir olunduğu folklor nümunələri sırasında əsas yeri nağıllar tutur və bu nağılların əksəriyyəti üçün müştərək olan bir ümumi cəhət var: Şah Abbasın vəzir Allahverdi xanla dərviş libasında məmləkəti gəzməsi süjet xətti. Belə nağıllarda süjet xətti dərviş paltarında əyalətləri dolaşan Şah Abbasın məhz gəzinti zamanı gördüyü, şahidi olduğu əhvalatlar əsasında qurulur. Şahın ölkəni dərviş paltarında gəzməyə çıxması təsadüfi deyil. Bu haqda müxtəlif fikirlər var. Məlum olduğu kimi, dərvişlik, əsasən, IX əsrin əvvəllərində meydana gələrək, islam Şərqində, xüsusən Ərəbistan, Türkiyə, İranda xeyli yayılmışdır. Dərviş, əsasən, müsəlman rahibi olub, eyni zamanda ara həkimi, ovsunçuluq, sehrkarlıq və s. funksiyaları da daşımışdır[3].

Bəzi funksiyalarına görə müsəlman ölkələrindəki dərviş Qərbi Avropa ölkələrindəki kahini xatırladır.

Hökmdar haqqında mifoloji görüşlərə və hökmdar-kahin bağlılığına əsaslanaraq belə ehtimal etmək olar ki, nağılların əksər qismində Şah Abbasın dərviş qiyafəsində əyalətləri dolaşması xalqın dərvişə xüsusi münasibətindən irəli gəlir. Təsadüfi deyil ki, M.H.Təhmasib araşdırmalarında buta vermək məsələsində dərvişin adını Xızırdan – "sənət və sənətkarlıq hamisi, yolçular və yolitirənlər köməkçisi"

---

[1] Qarabağ: folklor da bir tarixdir. VI kitab / Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanmış folklor örnəkləri. Bakı: Elm və təhsil, 2013, s.111

[2] Pirsultanlı S.P. Azərbaycan türklərinin xalq əfsanələri. Bakı: Azərnəşr, 2009, s.43

[3] Azərbaycan nağılları, 5 cilddə, III c. / tərtib edəni Ə.Axundov. Bakı: Şərq-Qərb, 2005, s.289-290

adlandırdığı əsatiri fiqurdan əvvəl çəkir[1]. Ş.Cəmşidov şifahi xalq ədəbiyyatında Şah Abbasın ideallaşdırılmasının, nağılların əksəriyyətində ədalət, rəmzi kimi verilməsinin əsas səbəbini vaxtilə el-el, oba-oba gəzən və Səfəvilər nəslindən həmişə ehtiram görən dərvişlərin fəaliyyəti ilə izah edir: "...Təsadüfi deyil ki, nağıllarda, əksər hallarda Şah Abbas dərviş obrazında verilir. Bu, eyni zamanda, dərvişlərin xalq arasında özlərinə ehtiram və ehtiyatlı münasibət aşılamaq məqsədi güdməsilə əlaqədardır. "Birdən bu dərviş elə şah özü ola bilər?" – sualı camaatı həmişə məşğul etmişdir" [2].

Nağıllarda Şah Abbasın təğyir-libas olaraq məmləkəti gəzməsi xalqın onun haqqında nə danışdığını öyrənmək, bəzən isə xalqın güzəranı haqqında məlumat toplamaq niyyəti güdür və mühüm elementlərlə dolu olan bu folklor nümunələrinin hər birində ən azından bir didaktik məqsəd ifadə olunur. Məsələn, "Qızıl günbəz" nağılında Şah Abbasın düşünmədən qərar çıxarması təsvir olunur. Burada şah bir qadının xəyanətini görüb ölkəsində olan bütün qadınların, qızların boynunu vurmağı əmr edir. Vəzir Allahverdi xanın atası Şah Abbasın bu qərarını eşidəndə oğluna deyir: "...Yer üzündə kişilərdən cəsarətli, namuslu, qorxmaz olan qadınlar çoxdur. Bu ağılsız fərman insan nəslinin kəsilməsi deməkdir. Siz ölümünüzə razı olun, ancaq belə cinayətə razı olmayın"[3] . Beləliklə, vəzir atasının məsləhətinə qulaq asıb fərmanın icrasına mane olur və nağılda didaktik fikir irəli sürülür: hökmdarın hər hökmü yüz dəfə ölçülüb-biçilmiş hökm olmalıdır.

Tədqiqatçılar Şah Abbasla bağlı bəzi nağılları tarixi nağıllar qrupuna aid edirlər. Bu, şərti bölgüdür. Şah Abbas obrazının yaradıldığı nağıllarda birbaşa tarixilik axtarmaq çox çətindir. Tarixə dair yazılı məlumatları öyrənərkən də

---

[1] Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979, s.6

[2] Cəmşidov Ş. Azərbaycan yazılı dastan abidələrinin tədqiqi. Bakı: Nurlan, 2002, s.26

[3]Azərbaycan nağılları, 5 cilddə, II c. / xalq variantı əsasında çapa hazırlayanlar A.Nəbiyev, O.Hüseynov. Bakı: Turan, 2001, s.253 – 266

müəyyən təhriflərə, yanlışlıqlara yol verildiyini, bəzən verilmiş mənbələrdən birinin digəri ilə uyğunluq təşkil etmədiyini görürük. Tarixi əsərlərdə belə təhriflər varsa, onda Şah Abbasın "ciddi" yöndə təsvir edildiyi nağılların tarixiliyindən danışmaq özünü doğrultmur.

Dastanlarımızda da Şah Abbas obrazı ilə bağlı bəzi səciyyəvi məqamlar var. "Abbas və Gülgəz", "Heydər bəy", "Nəcəf və Pərzad", "Qul Mahmud", "Abdulla və Cahan", "Yetim Hüseyn", "Qurbani" kimi dastanlarda "ciddi" yöndə təsvir edilmiş Şah Abbas obrazına müəyyən qədər yer verilmişdir. "Abbas və Gülgəz" dastanının sıx bağlı olduğu Abbas Tufarqanlının XVI – XVII əsrlərdə yaşaması, Şah Abbasın müasiri olması, hətta şahın Gülgəz Pərini saraya aparması, onu Abbasa vermək istəməməsi və s. əhvalatlarda nə qədər bədiilik olsa da, tarixi həqiqətin izləri də görünməkdədir. Tarixçilərin aşkara çıxardığı tarixi həqiqətlər, səyyahların xatirələri və digər mənbələr dastandakı bu əhvalatların bir qisminin tarixən baş verdiyini təsdiq edir. Dastanda yaradılan Şah Abbas obrazının tarixi şəxsiyyət olan I Şah Abbasla müəyyən qədər səsləşməsinə şübhə qalmır. Lakin bədii obrazla tarixi şəxsiyyəti eyniləşdirmək mümkün deyil, yəni I Şah Abbasın obrazını müəyyən qədər əks etdirən dastanlar "tarixi dastan" hesab edilə bilməz.

Dissertasiyanın **III fəsli "Komik yöndə Şah Abbas obrazı"** adlanır. Bu fəsildə komizmin folklorda özünü göstərən bir çox tipik xüsusiyyətləri açıqlanmışdır. Araşdırma zamanı, əsasən, lətifə, rəvayət və nağıl janrlarına diqqət yetirilmiş və bu qənaətə gəlinmişdir ki, komik yöndə təqdim edilən Şah Abbas obrazı mövqeyinə görə "ciddi" yöndə təqdim edilən Şah Abbas obrazından fərqlənir.

**III fəslin** *"Nağıl, rəvayət və lətifələrdə komik Şah Abbas obrazı"* adlanan *I yarımfəslində* qeyd olunur ki, rəvayət, nağıl və lətifələrdə xalq gülüşünün özünəməxsus sistemi meydana çıxır. "Allahla şərikli bostan əkən qoca" , "Birinə 100 tümən, birinə 100 çubuq" , "Ağıllı gəlin", "Bostançı və Şah Abbas" və s. nağılları, "Şah Abbas", "Şah Abbasın bığ məsələsi" rəvayətləri bu qəbildəndir.

Şah Abbasdan bəhs edən nağıl və rəvayətlərdən fərqli olaraq, lətifələrdə komikliyin bütün əlamətləri qorunmuş və bu

lətifələr nəsildən-nəslə keçərək xalq arasında geniş yayılmışdır.

Şah Abbasla bağlı lətifələr mövzu və ideya baxımından müxtəlif problemləri çevrələyib ictimai həyatda baş vermiş çatışmazlıqları gülüş hədəfinə çevirmişdir. Adətən, çox ibrətamiz olan lətifələr arasında elə bir nümunə tapmaq olmaz ki, orada müəyyən əxlaqi, əqli, ictimai fikir verilməmiş olsun[1].

Dissertasiyanın **III fəslinin** *II yarımfəsli "Komik qarşıdurma"* adlanır. Bu yarımfəsildə qeyd olunur ki, komik yöndə təqdim edilən Şah Abbas obrazının "ciddi" yöndə təqdim edilən Şah Abbas obrazından başlıca fərqi daha çox Şah Abbas–Kəlniyyət münasibətlərində aşkara çıxır. Şah Abbas bir söz deməklə, Kəlniyyət isə həmin sözün cavabını verməklə özünün daha ağıllı və hazırcavab olduğunu ətrafındakılara nümayiş etdirmək istəyir. Əslində, bu, komik qarşıdurmadır. Kəlniyyət Şah Abbasa hökmdar kimi deyil, bir oyundaş kimi yanaşır. Kəlniyyət ayrı-ayrı adamların qüsurlarını, nöqsanlarını onların üzünə dediyi kimi, hökmdarın nöqsan və qüsurlarını da onun üzünə deyir, yəni onun hökmdarla münasibətlərində məhdudiyyət olmur. Buna baxmayaraq, Kəlniyyət hökmdarla özü arasında tarazlığı qoruyub saxlayır və onlar arasında münasibət hökmdar-təlxək münasibətindən o yana getmir. Öz növbəsində, hökmdarın da ona münasibəti fərqlidir, bu münasibət "ciddi" planda deyil, komik planda təqdim edilir. Məsələn, Şah Abbasın "ciddi" planda təsvir edildiyi nağıllarımızda qəzəblənib "Cəllad!" deyə qışqıran, bütün saray adamlarının canına vəlvələ salan, bəzən bir qadının xəyanətini görüb bütün qadın və qızların ölümünə fərman verən Şah Abbas komik nümunələrdə öz hazırcavablığı ilə ona qalib gələn Kəlniyyətə qarşı kin-küdurət bəsləmir.

Şah Abbas–Kəlniyyət lətifələrində məqsəd hökmdarı ifşa etməyə, onu gözdən salmağa yox, gülüş yaratmaq və gülüşün həyatvericilik qüvvəsinə inanaraq bu yolla hökmdarın qüdrətini artırmağa yönəlmişdir.

---

[1] Paşayev Q. İraq-Türkman folkloru. Bakı: Yazıçı, 1987, s.191

Cəmiyyətdəki nöqsanları, qüsurları məhz komizm yolu ilə islah etməyə çalışdığına görədir ki, verdiyi cavablarına, sərrast eyhamlarına görə Kəlniyyəti dar ağacına çəkmirlər, edam etmirlər. Ümumiyyətlə, Çingiz xan, Topal Teymur, Şah Abbas və başqa tarixi şəxsiyyətlər haqqında yaranmış lətifələrdə başqasının rolunda çıxış edib-etməməyindən asılı olmayaraq, tənqid edən tərəf özü tənqid olunanlar cərgəsindən qıraqda qalmır, tənqid edən tərəf tənqid olunan dünyanın tərkib hissəsi olub, ətrafdakılara gülməkdən daha çox, ətrafdakılarla bir yerdə gülür.

Lətifələrdə hökmdarla onun ətrafındakı baməzə adamlar arasında düşmənçilik münasibəti olmur, tənqid edənlə tənqid olunan, pislə yaxşı bir-birinə qaynayıb-qarışır. Şah Abbasın komik yöndə təsvir edildiyi nümunələrdə əsas məqsəd tənqid etməkdən daha çox gülüş yaratmaqdan, oyun çıxarmaqdan ibarət olduğundan, komik süjetlər obrazların sərbəstliyinə geniş imkan açır. Bu nümunələrdə komik müdriklik özünü güc-qüdrət əlaməti kimi göstərir, xeyir və şər arasında kəskin sərhəd olmur, komik qarşıdurmada kimin haqlı, kimin haqsız olduğu o qədər də bilinmir.

Bu folklor nümunələri sırasında keçəllə bağlı nağılların özünəməxsus yeri var. Əksər folklor nümunələrimizdə keçəllər, adətən, öz hiylələrini həyata keçirmək üçün cilddən-cildə, dondan-dona girirlər. Lakin keçəllə bağlı bəzi nağıllarda Şah Abbası tanımayaraq onu dərviş hesab edən keçəl obrazını dastanlardakı və digər folklor nümunələrindəki ənənəvi keçəl obrazı kimi kələkbazlıq modeli əsasında araşdırmaq qeyri-mümkündür, burada kələkbazlıq keçələ deyil, Şah Abbasa məxsusdur. Kələkbaz Şah Abbasla keçəl arasında komik qarşıdurma baş verir və bu qarşıdurma Şah Abbas-Kəlniyyət münasibətlərindən xeyli fərqlənir.

Beləliklə, komik Şah Abbas obrazı ilə bağlı folklor nümunələrinin araşdırılması göstərir ki, Şah Abbas obrazının bəzən müdrik şaha uyğun olmayan davranışları məhz gülüş zəminində meydana çıxır və buradakı gülüş Şah Abbası tənqid məzmunda omayıb, yalnız xoş əhvali-ruhiyyə yaratmağa yönəlir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir. Tədqiqat nəticəsində belə qənaətə

gəlinir ki, Şah Abbasın xalq arasında məşhurluq qazanmasının səbəbini:

–mifoloji görüşlərə görə xalqın hökmdarı müqəddəsləşdirməsi;

–Şah Abbasın 42 il hakimiyyətdə olması;

– Səfəvilər dövlətini parçalanmaqdan xilas edərək mərkəzləşdirilmiş dövlət yaratması;

–hakimiyyətdə olduğu dövrdə türk dilinin rəsmi dairələrdə işlənməsinə geniş meydan verməsi;

–Şah İsmayılın Çaldıran döyüşündəki ağır məğlubiyyətindən 100 il sonra Səfəvi imperiyasının itirdiyi torpaqların əksəriyyətini geri alması;

– hakimiyyətdə olduğu dövrdə uğurlu islahatlar keçirərək nizami ordu yaratması;

–xalq arasında mömin şah kimi tanınması;

–rəiyyətin qayğısına qalması;

–təğyir-libas olaraq əhalinin maddi rifahını, həmçinin rəiyyətin şah haqqında fikrini öyrənmək üçün vilayətləri gəzməsi;

–abadlıq işləri aparması, sənətkarlığı inkişaf etdirməsi;

–Şah Abbas obrazının timsalında ənənəvi şah modelinin yaradılması və bu modelin folklor nümunələrinin əksəriyyəti üçün səciyyəvi olması və s. faktlarla əlaqələndirmək olar.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı tezis və məqalələrdə əksini tapmışdır:**

1.Şah Abbas obrazının tarixi kökləri // Azərbaycan Milli Elmlər Akademiyası Aspirantlarının Elmi Konfransının Materialları, Bakı: Elm nəşriyyatı, 2009, s.620-622

2.Hökmdar və onunla bağlı mifik görüşlər // – “Dədə Qorqud”. Elmi-ədəbi toplu, IV. Bakı, “Nurlan” nəşriyyatı, 2012, s.87 – 96

3.Qarabağ folklorunda tarixilik // Qarabağ folkloru: problemlər, perspektivlər mövzusunda Respublika Elmi konfransının Materialları. 26 dekabr, 2012-ci il. Bakı: Elm və təhsil, 2012, s.237–243

4.Dastana çevrilmiş tarix, yaxud "ədalətli" Şah Abbas // Folklor və Tariximiz mövzusunda Respublika Elmi Konfransının Materialları. AMEA Folklor İnstitutu, AMEA A.Bakıxanov adına Tarix İnstitutu,19–20 noyabr, 2012-ci il, Bakı: Elm və təhsil, s.180 – 185

5.Lətifələrdə Şah Abbas obrazı // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (qırxıncı kitab). Bakı: "Elm və təhsil", 2012, s. 97 – 102

6.Hökmdar və ölümsüzlük problemi // Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, Materiallar. Qafqaz Universiteti, Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 25–26 Aprel, 2013, s.472–473.

7.Əfsanə və rəvayətlərdə Şah Abbas obrazı // Filologiya məsələləri №1. "Bakı: "Elm və təhsil", 2013, s.319–324

8.О взаимосвязи правителя со жрецом // Ученые записки Таврического Национального Университета им. В.И.Вернадского. Серия Филология. Социальные коммуникации. Том 26 (65) №1, ч.1, Симферополь: 2013, стр.439–444

9.Komik yöndə Şah Abbas obrazı // Filologiya məsələləri №9. "Bakı: "Elm və təhsil", 2014, s.293–300

*SHAFAG FAKHRADDİN gizi ALİYEVA*

# THE CHARACTER "SHAH ABBAS" İN AZERBAİJAN FOLKLORE

## SUMMARY

The thesis consists of the introduction, three chapters, the conclusion and the list of used literatures.

In the introduction of the dissertation work the actuality of the investigation is based on, the scientific innovations, aim and duties of the investigation are determined, the practical and theoretical importance of the investigation, the methods and sources used in the dissertation work are spoken about, the information about the structure of the investigation is given.

The first part of the dissertation work is called "The mythological and historical roots of the character king. In this part consisted of two chapters: "The mythological roots of the character king" and "The historical roots of the character Shah Abbas" the archaic thinking system about the king is looked through basically, the reasons of Shah Abbas being famous as the historical personality among the nation are investigated and the historicity in the character is determined.

The second part of the dissertation is called "The character "Shah Abbas" in "serious" direction" and consists of two chapters: "The character Shah Abbas in the legends" and "The character Shah Abbas in the tales and eposes". In these chapters in order to clear up some disputable points the folklore texts about Shah Abbas are investigated not comically, but seriously.

The third part of the dissertation is called "The character Shah Abbas in the direction "comic" and it consists of two chapters. In this part the problems "The comic Shah Abbas character in the tales, legends and anecdotes" and "The comic confrontation" are investigated, some typical characters of comizm showing itself in folklore are cleared up.

In the conclusion the main propositions of the investigation work are generalized.

**ШАФАГ ФАХРАДДИН кызы АЛИЕВА**

# ОБРАЗ ШАХ АББАСА В АЗЕРБАЙДЖАНСКОМ ФОЛЬКЛОРЕ

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трёх глав, заключения и списка использованной литературы.

Введение диссертации состоит из актуальности, цели и обязательств, научных новостей, теоретико-методологических основ темы, теоретической и практической важности, апробации исследования.

Первая глава диссертации называется «Мифологические и исторические корни образа правителя». В этой главе, которая состоит из разделов «Мифологические корни образа правителя» и «Исторические корни образа Шах Аббаса», были рассмотрены архаическая система мышления, связанная с правителем, причины популярности Шаха Аббаса среди народа как исторической личности и историзм этого образа.

Вторая глава диссертации, которая называется «Образ Шах Аббаса в серьезном ключе» и состоит из двух разделов. В разделах «Образ Шах Аббаса в преданиях» и «Образ Шах Аббаса в сказках и дастанах» для прояснения некоторых спорных вопросов связанных с образом Шах Аббаса, были привлечены к исследованию фольклорные образцы не комического, а «серьезного» толка.

Третья глава диссертации называется «Образ Шах Аббаса в комическом ключе». В этой главе были рассмотрены вопросы «Комический образ Шах Аббаса в сказках, преданиях и анекдотах», «Комическое противостояние», были прояснены многие типические особенности комизма в фольклоре.

В «Заключении» подводятся итоги проведенных исследовательских работ. В этом разделе обобщены выводы основные положения исследования и определены направления дальнейшего изучения темы.

Kağız formatı: 60/84 16/1
Sayı: 100 nüsxə

AMEA-nın mətbəəsində çap olunmuşdur

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФОЛЬКЛОРА**

*На правах рукописи*

**ШАФАГ ФАХРАДДИН кызы АЛИЕВА**

# ОБРАЗ ШАХ АББАСА В АЗЕРБАЙДЖАНСКОМ ФОЛЬКЛОРЕ

**5719.01- Фольклористика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по филологии**

**БАКУ – 2016**